AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.com
www.olimpnews.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 37 (1539), 15 - 21 noyabr 2022-ci il

Qəzet 2001-ci ildən çıxır.



## Prezident İlham Əliyev Avropa Olimpiya Komitələrinin prezidentini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Avropa Olimpiya Komitələrinin prezidenti və Yunanıstan Olimpiya Komitəsinin prezidenti Spiros Kapralosu qəbul edib.

Dövlətimizin başçısı, ilk növbədə, Spiros Kapralosu Avropa Olimpiya Komitələrinin prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi, fəaliyyətində uğurlar arzuladı, Azərbaycan Milli Olimpiya Komitəsinin 30 illik yubiley tədbirlərində iştirakına görə minnətdarlığını bildirdi. Birinci Avropa Oyunlarını məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu mötəbər tədbirin önəmini vurğuladı, oyunların təşkilində Spiros Kapralosun rolunu yüksək qiymətləndirdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən qonaq, ilk növbədə, Azərbaycan Milli Olimpiya Komitəsinin 30 illik yubileyi münasibətilə təbriklərini çatdırdı. Birinci Avropa Oyunlarının əhəmiyyətinə toxunan Spiros Kapralos bu beynəlxalq idman tədbirinin yüksək səviyyədə təşkil olunduğunu və bu işdə dövlətimizin başçısının rolunu xüsusi qeyd etdi. Bildirdi ki, ölkəmizin bu tədbirə layiqincə ev sahibliyi etməsi Avropa Olimpiya ailəsində həmrəyliyə böyük töhfə verib. Spiros Kapralos ötən dövr ərzində Azərbaycan idmançılarının beynəlxalq turnirlərdə qazandıqları böyük uğurları məmnunluqla vurğuladı.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Azərbaycanla Avropa Olimpiya Komitələri arasında əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə etdi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

Spiros Kapralos dövlətimizin başçısına Azərbaycan Milli Olimpiya Komitəsinin 30 illik yubileyi münasibətilə xatirə hədiyyəsi təqdim etdi.

Sonda xatirə şəkli çəkdirildi.

### *Azərbaycanda idmanın inkişafında xidmətləri olan şəxslərə “Əməkdar bədən tərbiyəsi və idman xadimi” fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin*

**Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin yaradılmasının 30 illik yubileyi münasibəti ilə və idmanın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə “Əməkdar bədən tərbiyəsi və idman xadimi” fəxri adı verilsin:

Əliyev Vaqif Hüseynağa oğlu
Hüseynov Nazim Qalib oğlu.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 12 noyabr 2022-ci il*

### *Azərbaycanda idmanın inkişafında xidmətləri olan şəxslərin “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin*

**Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin yaradılmasının 30 illik yubileyi münasibəti ilə və idmanın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilsin:

İsayev Xəzər Ağali oğlu
Meftahəddinova Zemfira Əli qızı
Rəhimov Nazir Həzrətqulu oğlu
Şabanova Rəfiqə Mahmud qızı.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 12 noyabr 2022-ci il*

### *Azərbaycanda idmanın inkişafında xidmətləri olan şəxslərin “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin*

**Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin yaradılmasının 30 illik yubileyi münasibəti ilə və idmanın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər “Tərəqqi” medalı ilə təltif edilsinlər:

Fərzəliyev Murad Qoçu oğlu
Kərimov Mehman Bayram oğlu.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 12 noyabr 2022-ci il*

## Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinə

Hörmətli Milli Olimpiya Komitəsi üzvləri!

Sizi, eləcə də ölkəmizin bütün idman ictimaiyyətini Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinin yaradılmasının 30 illiyi münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə ən xoş arzularımı yetirir və gələcək işlərinizdə yeni uğurlar diləyirəm.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, 1992-ci ildə təsis olunan Milli Olimpiya Komitəsi ötən müddət ərzində ölkəmizin öz idman potensialını tam gerçəkləşdirməsi naminə daim var qüvvəsi ilə çalışmışdır. Komitə nailiyyətlərlə zəngin şərəfli bir yol keçmiş və işini yalnız Olimpiya Oyunlarında iştirakla məhdudlaşdırmayaraq, respublikada Olimpiya ideallarının bərqərar olmasında və idmanın dinamik inkişaf etdirilməsində təqdirəlayiq xidmətlər göstərmişdir. Qurumun fəaliyyətinin səmərəli təşkilinin nəticəsidir ki, idmançılarımız Olimpiya Oyunlarında, Avropa və dünya çempionatlarında çoxsaylı müvəffəqiyyətlər qazanmışlar.

Respublikamızda idmana diqqət dövlət siyasətinin prioritetlərindəndir. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində aparılan işlər, o cümlədən yaradılmış ən müasir idman infrastrukturu, olimpiya kompleksləri, ixtisaslaşmış idman məktəbləri bunun əyani təsdiqidir. Xüsusi vurğulamaq istərdim ki, mötəbər beynəlxalq idman yarışlarının keçirilməsində böyük təcrübə əldə olunmuşdur. Bu gün yüksəliş dövrünü yaşayan və bayrağımızı dünyanın hər yerində dalğalandıran idmanımızın tarixinə parlaq səhifələr yazılmaqdadır. Azərbaycan idman sahəsində nəhəng layihələr reallaşdıraraq uğurla imza atmış ölkə kimi artıq dünya miqyasında tanınır.

Milli Olimpiya Komitəsi idmançılarımızın Olimpiya Oyunlarındakı qələbələrinə dəyərli töhfələr verən və yüksək səviyyəli qarşılıqlı əməkdaşlıq əlaqələri quraraq hazırda qitənin olimpiya qurumları arasında ön sıralarda dayanan nüfuzlu təşkilatlardan birinə çevrilmişdir. İnanıram ki, Komitə Olimpiya Xartiyasının başlıca prinsipləri əsasında respublikamızda Olimpiya hərəkatının qarşıdakı illərdə daha geniş vüsət alması üçün imkan və bacarığını bundan sonra da əsirgəməyəcək, nailiyyətləri ilə ictimai həyatımızdakı əhəmiyyətli mövqeyini qoruyub saxlayacaqdır.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 11 noyabr 2022-ci il*

## Azərbaycan Milli Olimpiya Komitəsinin 30 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib

Səh. 2-3

## “Olimpiya, incəsənət və idman” sərgisi hər kəsin böyük marağına səbəb oldu

Səh. 5

## *“Azərbaycanda Olimpiya Hərəkatı” fotomüsabiqəsinin qalibləri mükafatlandırılıblar*

Səh. 6

## AGF təmsilçilərinin Avropa Gimnastikasının müxtəlif komissiyalarına namizədliyi irəli sürülüb

Səh. 7

## *Azərbaycanda cüdonun yaranmasının 50 illiyinə həsr olunan marka dövriyyəyə buraxılıb*

Səh. 7

Olimpiya dünyası

15 - 21 noyabr 2022






# Azərbaycan Milli Olimpiya Komitəsinin 30 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib

Noyabrın 11-də Bakıdakı "Gülüstan" sarayında Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) 30 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib. Tədbirdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, federasiyaların rəhbərləri, Olimpiya çempionları və titullu idmançılar iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Azərbaycan idmançılarının Olimpiya Oyunlarında uğurlu çıxışları barədə videoçarx nümayiş olunub.

Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyevin Milli Olimpiya Komitəsinə təbrik məktubunu oxuyub.

Avropa Olimpiya Komitələrinin və Yunanıstan Olimpiya Komitəsinin prezidenti Spiros Kapralos çıxışında Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını, Birinci Avropa Oyunlarının Bakıda yüksək səviyyədə təşkil olunduğunu deyib. Bildirib ki, Azərbaycanda idmana dövlət səviyyəsində göstərilən yüksək diqqət və qayğının nəticəsində ölkədə ən müasir idman infrastrukturu yaradılıb və azərbaycanlı atletlər beynəlxalq arenada layiqincə çıxış edirlər. Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü uğurlu idman siyasəti sayəsində mümkün olub.

Spiros Kapralos vurğulayıb ki, Birinci Avropa Oyunları Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə mükəmməl təşkil edilib.

Müasir quruluşda hazırlanmış Olimpiya Himni təqdim olunduqdan sonra Avropa Olimpiya Komitələrinin prezidenti S.Kapralos rəhbərlik etdiyi qurumun xatirə hədiyyələrini MOK-un vitse-prezidenti Çingiz Hüseynzadəyə və baş katib Azər Əliyevə təqdim edib. MOK rəsmiləri də komitənin xüsusi hədiyyəsini S.Kapralosa veriblər.

Təntənəli yubiley mərasimi möhtəşəm konsert proqramı ilə davam edib.

Tədbirdə iştirak edən rəsmi qonaqlar Milli Olimpiya Komitəsinin 30 illik yubileyi münasibətilə bağlı öz təbrikləri "Olimpiya dünyası" qəzeti ilə bölüşüblər.



## "Ölkəniz indiyə qədər qitə və dünya miqyaslı yarışlara layiqincə ev sahibliyi edib"

***Spiros Kapralos,***
***Avropa Olimpiya Komitələrinin və Yunanıstan Olimpiya Komitəsinin prezidenti:***

- Azərbaycan Milli Olimpiya Komitəsinin 30 illiyi tamam olur. Bu Azərbaycanın idman tarixində əlamətdar hadisələrdən biridir. Azərbaycan Milli Olimpiya Komitəsi dünyada ən gənc Olimpiya Komitələrindən biri olsa da, bir sıra komitələrdən daha böyük uğura sahib olub. Azərbaycanda Olimpiya Hərəkatına və idmana böyük diqqət və qayğı var. Bunun nəticəsidir ki, idmançılarınız beynəlxalq aləmdə ən ciddi rəqiblərdən biri sayılırlar. Ölkəniz indiyə qədər qitə və dünya miqyaslı yarışlara layiqincə ev sahibliyi edib. Həmin tədbirlərlə ölkəniz nə qədər etibarlı və məsuliyyətli olmasını bütün dünyaya sübut edib. Bayramınız mübarək. Azərbaycan Milli Olimpiya Komitəsinə bundan sonrakı illərdə daha böyük uğur və idman nailiyyətləri arzulayıram.

## "Hər zaman burada olmaqdan məmnunluq hissi duyuram"

***Leri Xabelov,***
***Gürcüstan Olimpiya Komitəsinin prezidenti:***

- Azərbaycanın hər zaman güclü idmançıları olub. Bu ənənə indi də davam edir. Mən Barselona Olimpiadasında çempion olarkən, azərbaycanlı Nazim Hüseynov da cüdo idman növündə qızıl medala layiq görülmüşdü. Müstəqillik əldə etdikdən sonra keçmiş SSRİ tərkibində olan ölkələr idman sahəsində də öz uğurları üçün fəaliyyət göstərdilər. Qısa zaman ərzində idman sizin ölkədə sürətlə inkişaf etməyə başladı. Nəticədə olimpiadalarda əldə olunan uğurlar bir-birini əvəz etdi. Ölkə rəhbərliyinin idmana göstərdiyi diqqət və qayğı öz bəhrəsini verdi. Uzun illərdən bəri Azərbaycanda dostluq əlaqələri qurduğum tanınmış idmançılar var. Bu gün onlarla yubiley tədbirində rastlaşdım. Çox istiqanlı və etibarlı insanlardır. Hər zaman burada olmaqdan məmnunluq hissi duyuram. Azərbaycan Milli Olimpiya Komitəsinə bu yorulmaz fəaliyyətində uğurlar diləyirəm.

## "Azərbaycan idmanı yüksək səviyyədə inkişaf edib"

***Könül Nurullayeva,***
***Millət vəkili, Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü:***

- Bu 30 il ərzində Azərbaycanda idman sahəsində çox böyük işlər həyata keçirilib. Cənab İlham Əliyev 1997-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra idman ölkəmizdə yüksələn xətlə inkişaf etməyə başladı. Olimpiya Oyunlarında qazanılan nəticələr bu inkişafı bir daha sübut etdi. Azərbaycan müxtəlif illərdə birinci Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının, dünya, Avropa çempionatlarının, Formula 1 yarışlarının və digər mötəbər turnirlərin uğurlu təşkilatçısı kimi yadda qalıb. Azərbaycanda idman 30 il ərzində yüksək səviyyədə inkişaf edib. Bu gün bir çox azərbaycanlı müxtəlif beynəlxalq idman strukturlarında təmsil olunmaq imkanı qazanıb. Bu da Azərbaycan Prezidenti İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın idmana olan diqqət və qayğısının göstəricisidir.

Fürsətdən istifadə edib bizim üçün doğma olan Milli Olimpiya Komitəsini 30 illik yubiley münasibəti ilə təbrik edir, yeni uğurlar arzulayıram.

## "30 il ərzində Milli Olimpiya Komitəsi böyük və şərəfli yol keçir"

***Ülvi Quliyev,***
***Millət vəkili, Azərbaycan Karate-do Federasiyaları Assosasiyasının prezidenti:***

- Bu gün Milli Olimpiya Komitəsinin 30 illik yubileyi qeyd olunur. Bu xoş gün münasibəti ilə komitənin bütün kollektivini, olimpiyaçıları və Olimpiya Hərəkatının inkişafında əməyi olan hər kəsi təbrik edirəm. 30 il böyük bir tarixdir. 30 il ərzində Milli Olimpiya Komitəsi böyük və şərəfli yol keçib. Bu yolda uğurlar həddən artıq çoxdur. Cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçildiyi dövrdən sonra Azərbaycanda Olimpiya Hərəkatı geniş vüsət aldı. Bu gün də Azərbaycanın gənclər və idman siyasəti uğurla davam edir. İnanıram ki, gələcək nəsillər bu diqqət və qayğıdan yararlanaraq, uğurların davamında böyük pay sahibi olacaq.

## "Özümü xoşbəxt sayıram ki, bu illər ərzində mənim də xidmətlərim olub"

***Xəzər İsayev,***
***Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyasının sədri:***

- Bu 30 il ərzində Milli Olimpiya Komitəsi tərəfindən böyük işlər həyata keçirilib. Komitənin yarandığı ilk illər çox çətin bir dövrə təsadüf etmişdi. İdman mütəxəssisləri və idmançılar ölkədən getmişdi. Lakin cənab İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra bu sahədə böyük işlər həyata keçirilməyə başlandı. Ölkəmizdə idmanın maddi-texniki bazasının gücləndirilməsi istiqamətində yeni Olimpiya İdman kompleksləri inşa edilərək gənclərin istifadəsinə verildi. Həmçinin ölkəni tərk etmiş idmançılar yenidən Vətənə qayıtdılar. Bundan başqa Beynəlxalq Olimpiya Komitəsi və digər beynəlxalq qurumlarla münasibətlər daha da inkişaf etməyə başladı. İdmançılarımızın Olimpiya Oyunlarındakı nəticələri daha da yaxşılaşdı. Getdikcə Azərbaycanda Olimpiya Hərəkatı öz mövqeyini və istiqamətini genişləndirdi.Azərbaycanda yüksək səviyyəli idman tədbirlərinin uğurla təşkil olunması ölkəmizin təşkilatçılıq potensialını və nüfuzunu artırdı. Bu uğurlu strategiyanın sayəsində Azərbaycan dünyanın ən güclü idman ölkələrindən birinə çevrildi. Bu gün 30 illik yubiley tədbirində iştirak etmək üçün Avropa Olimpiya Komitələrinin prezidenti, beynəlxalq qurumların rəhbərləri və nümayəndələri Bakıya gəliblər. Bu, Azərbaycanın 30 il ərzində qazandığı hörmətin, etibarın və güvənin nəticəsidir.

Milli Olimpiya Komitəsi mənim də həyatımda mühüm yer tutur. Bütövlükdə götürdükdə mən bu 30 il ərzində Milli Olimpiya Komitəsinin fəaliyyətində iştirak etmişəm. Özümü xoşbəxt sayıram ki, bu illər ərzində mənim də az da olsa xidmətlərim olub. Komitənin bütün əməkdaşlarını yubiley münasibəti ilə təbrik edirəm və arzu edirəm ki, belə yubileylərin sayı daha çox olsun.

*(ardı 3-cü səhifədə)*









# Azərbaycan Milli Olimpiya Komitəsinin 30 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib

(əvvəli 2-ci səhifədə)

## "Milli Olimpiya Komitəsinə zəfərlərlə dolu yubileylər arzulayıram"

***Ağacan Abıyev,***
***Milli Olimpiya Akademiyasının prezidenti:***

- İdmanımızın inkişafı Azərbaycanın Olimpiya Hərəkatına qoşulmağı ilə başlayıb. Cənab İlham Əliyevin 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi isə bugünkü böyük uğurlarımızın əsasını qoydu. Məhz bu dövrdən ölkəmizdə idman və Olimpiya Hərəkatı geniş vüsət almağa başladı, yeni Olimpiya İdman kompleksləri inşa edilərək gənclərin istifadəsinə verildi. Möhtərəm prezidentimizin idmançılarımıza diqqəti və Olimpiya Hərəkatına verdiyi töhfələr tezliklə öz bəhrəsini verdi. Bu gün Azərbaycan dünyada Olimpiya Hərəkatının inkişaf etmiş ən güclü idman ölkələrindən biridir. Bütün bunlar idmançılara olan diqqət və qayğıdan irəli gəlir. Mən bu uğurların canlı şahidiyəm. Fürsətdən istifadə edib qəzetiniz vasitəsi ilə bütün idmançıları və idman ictimaiyyətinin nümayəndələrini yubiley münasibəti ilə təbrik edirəm. Milli Olimpiya Komitəsinə zəfərlərlə dolu yubileylər arzulayıram.

## "Ailəmizi heç vaxt Olimpiya ailəsindən ayırmırıq"

***İlqar Rəhimov,***
***Milli Paralimpiya Komitəsinin prezidenti:***

- Paralimpiya ailəsi olaraq Milli Olimpiya Komitəsinin kollektivini 30 illik yubiley münasibəti ilə təbrik edirik. Ailəmizi heç vaxt Olimpiya ailəsindən ayırmırıq. Biz vahid idman ailəsiyik. Hər birimiz eyni amala xidmət edirik. Milli Olimpiya Komitəsinin sevinci, uğurları bizim də sevincimiz, fəxrimizdir. Azərbaycan idmanının inkişafında böyük payı olan komitəyə bundan sonrakı fəaliyyətində də yeni uğurlar arzulayıram. Azərbaycan xalqına yalnız zəfər yaraşır. Arzu edirəm ki, neçə belə gözəl zəfərlərlə dolu yubileylər qeyd edək.




## "Azərbaycan xalqını və idmançıları yubiley münasibəti ilə təbrik edirəm"

***İlham Zəkiyev,***
***Milli Paralimpiya Komitəsinin vitse-prezidenti, ikiqat paralimpiya çempionu:***

- İlk növbədə idmançıların yaxın dostu olan Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevi və MOK-un kollektivini təbrik edirəm. Arzu edirəm ki, üçrəngli bayrağımız daim zirvələrdə olsun. Bu 30 il ərzində idmançılarımız beynəlxalq və dünya miqyaslı yarışlarda uğurlu nəticələr əldə ediblər. İdmançılarımız Olimpiya və Paralimpiya Oyunlarında yüksək uğurlar qazanıblar. Bu da Azərbaycan Prezidenti İlham Əliyevin ölkə idmanına və idmançılara göstərdiyi diqqət və qayğının bəhrəsidir. İdmançılara hər cür şərait yaratdığı üçün dövlət başçısına minnətdarlığımı bildirirəm. Bir daha bütün Azərbaycan xalqını və idmançıları yubiley münasibəti ilə təbrik edirəm.




## "Arzu edirəm ki, Azərbaycanın idman sahəsindəki uğurları davamlı olsun"

***Nağı Səfərov,***
***Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidenti:***

- Bu gün bütün idmançıların, idman ictimaiyyətinin böyük bayramıdır. Əminliklə deyə bilərik ki, Azərbaycanın dünya idmanında tutduğu yer 30 il öncə başlayıb. Həmin vaxt ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti gələcək uğurların bünövrəsi idi. Azərbaycanda Olimpiya Hərəkatının dünyaya səs salması və böyük uğurların qazanılması isə cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinə prezident seçilməsindən sonra başladı. Bu gün Azərbaycan deyəndə hər kəsin xəyalında inkişaf etmiş idman ölkəsi canlanır. Arzu edirəm ki, Azərbaycanın idman sahəsindəki uğurları davamlı olsun və zirvədə olan mövqeyini qoruyub, saxlasın. İdman ictimaiyyətinin nümayəndələrini, olimpiyaçıları və Milli Olimpiya Komitəsinin kollektivini yubiley münasibəti ilə təbrik edirəm.

## "Azərbaycanda Olimpiya Hərəkatının inkişafında Milli Olimpiya Komitəsinin müstəsna rolu var"

***Sərxan Hacıyev,***
***AFFA-nın baş katibi:***

- AFFA rəhbərliyi adından Azərbaycan Milli Olimpiya Komitəsini 30 illik yubiley münasibəti ilə təbrik edirik. Bu danılmaz faktdır ki, Azərbaycanda Olimpiya Hərəkatının inkişafında Milli Olimpiya Komitəsinin müstəsna rolu var. Azərbaycan Respublikasının müstəqillik illəri dövründə xeyli sayda idmançılarımız Olimpiya Oyunlarında təmsil olunub, müxtəlif medallar əldə ediblər. Bütün bu məsələlərdə Milli Olimpiya Komitəsinin birbaşa rolu var. Fürsətdən istifadə edərək, MOK-un rəhbərliyini və işçi heyətini təbrik edir, işlərində daha da yüksək nailiyyətlər arzu edirik.

Bizim müsahibə



# Azər Əliyev:
## “Azərbaycan dünyada ən güclü idmançıları olan ölkələrdən biridir”

Noyabrın 5-də Milli Olimpiya Komitəsinin inzibati binasında “Olimpiya, incəsənət və idman” adlı sərginin açılış mərasimi keçirilib. Sərgidə iştirak edən MOK-un baş katibi Azər Əliyev tədbirlə bağlı fikirlərini, eləcə də yubiley barəsində təəssüratlarını “Olimpiya dünyası” qəzeti ilə bölüşüb.

***- Azər müəllim, bugünkü tədbirlə bağlı öz fikirlərinizi bildirməyi xahiş edirik.***

- “Olimpiya, incəsənət və idman” sərgisi çox yüksək səviyyədə təşkil olunub. Sərgidə müxtəlif rəsam və heykəltəraşların idman mövzusunda ərsəyə gətirdikləri əsərlər nümayiş olunur. Onların heç biri dəyər və sənətkarlıq baxımından biri-birindən seçilmir. Lakin qeyd edim ki, Milli Olimpiya Komitəsinin inzibati binasına daxil olarkən, foyedə asılmış xalça daha möhtəşəm alınıb. 2008-ci ildə Pekin Yay Olimpiya Oyunlarında medal qazanan idmançılarımızın şəkilləri həmin xalçada öz əksini tapıb. Bu o deməkdir ki, ölkəmizdə idman sahəsində də öz bacarığını nümayiş etdirən istedadlı insanlar yaşayır. Onların yaratdığı sənət nümunələri dəyərli bir xəzinədir və gələcək nəsillərə yadigardır.

***- Milli Olimpiya Komitəsinin 30 illik fəaliyyəti haqqında nə deyə bilərsiniz?***

- Bildiyiniz kimi, hazırda Milli Olimpiya Komitəsi özünün 30 illik yubileyini qeyd edir. İl ərzində yubileylə bağlı silsilə tədbirlər təşkil olunub. Doğrudan da Azərbaycan Milli Olimpiya Komitəsinin fəaliyyəti yüksək qiymətə layiqdir. Komitənin yaradıldığı dövr çox çətin və keşməkeşli olmuşdu. Milli Olimpiya Komitəsi cənab İlham Əliyevin sayəsində qısa müddət ərzində uğurlu böyük inkişaf yolu keçib. İdmançılarımız böyük qələbələrlə xalqımızı sevindiriblər. Biz bu gün əminliklə deyə bilərik ki, Azərbaycan dünyada ən güclü idmançıları olan ölkələrdən biridir. Cənab Prezident idmançıların və idman sahəsində çalışan hər bir mütəxəssisin əməyini və əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirib.

***- Ölkəmizin ev sahibliyi etdiyi mötəbər yarışlar barəsində də fikirlərinizi bilmək maraqlı olardı.***



- Azərbaycanda bu günə kimi müxtəlif idman növləri üzrə nüfuzlu idman tədbirləri təşkil olunub. Ölkəmiz hər bir mötəbər yarışda sözün əsil mənasında dünyanı heyrətləndirib. 7 il əvvəl tarixdə ilk dəfə təşkil olunan I Avropa Oyunlarına uğurla ev sahibliyi etdik. Bu tədbir bütün dünyaya səs saldı. Hər birimiz bu Oyunların təşkilində iştirak etdik. Ardınca İslam Həmrəyliyi Oyunları da paytaxtımızda təşkil edildi. Həmin Oyunların da öhdəsindən layiqincə gəldik. Artıq bizim istənilən mötəbər yarışın təşkilində kifayət qədər təcrübəmiz var.

***- Bilirik ki, özünüz də idmanla məşğul olursunuz. İstərdik ki, bir qədər də bu barədə danışasınız.***

- Azərbaycanda idman ən populyar bir sahədir. Biz çalışmalıyıq ki, gələcək nəsillər sağlam ruhda böyüsünlər. Sağlam insanlar hər zaman cəmiyyət üçün dəyərli bir nümunədirlər. Bəli, mən də idmanı çox sevirəm. Uzun müddət idmanla məşğul olmuşam. Hər kəsə tövsiyə edirəm ki, növündən asılı olmayaraq, fürsət düşəndə idmandan, məşqlərdən kənarda qalmasınlar.

***Anar Əhmədov***

# MOK-un 30 illik yubileyi münasibətilə möhtəşəm konsert təşkil edilib

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Milli Olimpiya Komitəsinin (MOK) 30 illiyinə həsr olunmuş konsert proqramı təşkil edilib. Əvvəlcə qurumun baş katibi Azər Əliyev, Avropa Olimpiya Komitələrinin prezidenti Spiros Kapralos və dünyanın 15 ölkəsinin Olimpiya komitələrinin prezidentləri, rəsmi şəxsləri Olimpiya Mədəniyyəti və Təhsil Proqramının (OCEP) pavilyonuna baxış keçirib.



OCEP proqramına daxil olan 8 məktəbin təmsil etdikləri ölkələrlə bağlı məlumat xarakterli pavilyon qonaqların marağına səbəb olub. Orada A.Vəliyev adına 286 saylı tam orta məktəb Polşanı, E.Əliyev adına 162 saylı tam orta məktəb Yunanıstanı, N.Həmzəyev adına 238 saylı tam orta məktəb Gürcüstanı, Y.Kovalyov adına 229 saylı tam orta məktəbi- Slovakiyanı, 158 saylı tam orta məktəb İtaliyanı, İ.Əfəndiyev adına Elitar Gimnaziya Türkiyəni, Bakı Avropa liseyi Yaponiyanı və Z.Məmmədov adına 171 saylı tam orta məktəb Sloveniyanı təmsil edib.



Məktəblilər təmsil etdikləri ölkələrin Olimpiya çempionları, adət-ənənələri, mədəniyyəti və mətbəxi haqqında məlumatları qonaqlara çatdırıblar. Pavilyona baxışdan sonra filarmoniyanın səhnəsində OCEP proqramının iştirakçısı olan Bülbül adına Orta İxtisas musiqi məktəbinin şagirdlərinin möhtəşəm konserti baş tutub. Konsertdə Azərbaycan və Avropa bəstəkarlarının əsərləri səsləndirilib.

Konsertin sonunda isə xalq artisti, MOK-un səfiri Tünzalə Ağayeva Azərbaycan Televiziyası və Radiosu Əfsər Cavanşirov adına “Bənövşə” uşaq xorunun üzvlərinin iştirakı ilə “Bizim zaman” mahnısını ifa edib. Bu ifaya OCEP proqramına daxil olan 54 məktəbin şagirdləri təmsil etdikləri ölkələrin bayraqları ilə qoşulublar. Konsert proqramının OCEP-in dostluq, sülh ideyasını təbliğ edən sonluğunu qonaqlar ayaq üstə alqışlayıblar.

MOK-un 30 illik yubileyinə həsr olunan OCEP proqramında 54 məktəbin direktor, müəllim və şagirdləri də iştirak ediblər.

Qeyd edək ki, Olimpiya Mədəniyyəti və Təhsili Proqramını Bakı-2019 Avropa Gənclər Yay Olimpiya Festivalı dövründə Milli Olimpiya Komitəsi, Beynəlxalq Olimpiya Komitəsi, Olimpiya Həmrəyliyi və Avropa Olimpiya Komitəsi, həmçinin Təhsil Nazirliyi və Festivalın Əməliyyat Komitəsi birgə təşkil edib. OCEP proqramının Avropa Gənclər Olimpiya Festivalının yay-qış buraxılışlarında, Olimpiya oyunları və hətta istənilən böyük idman tədbirləri çərçivəsində də icra olunması mümkündür.

# “İdman Filmləri və Proqramları Milli Televiziya Festivalı”nın mükafatlandırma mərasimi keçirilib

Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında Milli Olimpiya Komitəsinin 30 illik yubileyinə həsr olunmuş “İdman Filmləri və Proqramları Milli Televiziya Festivalı”nın təntənəli mükafatlandırma mərasimi keçirilib.

Tədbirdə çıxış edən Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə bütün iştirakçıları və qonaqları salamlayaraq MOK-un 30 illiyinə həsr olunmuş festivalın əhəmiyyətindən danışıb. Çingiz Hüseynzadə ölkə prezidenti cənab İlham Əliyevin sağlam gələcək nəsil yetişdirmək strategiyasının daim idmana göstərdiyi diqqət və qayğısının məntiqli davamı olduğunu vurğulayıb.



Daha sonra festivalın qalibləri elan olunub. Qaliblərə diplomlar və festivalın rəsmi mükafatı təqdim olunub.

Xatırladaq ki, “İdman Filmləri və Proqramları Milli Televiziya Festivalı”na iyulun 1-də start verilib. Festivalının münsiflər heyəti ümumilikdə 40-a yaxın film, proqram, promoçarx, reklam çarxı və musiqi kliplərindən ibarət 4 nominasiya üzrə qalibləri müəyyənləşdirib.

# Paris-2024-ün maskotu təqdim olundu

2024-cü ildə Parisdə keçiriləcək Yay Olimpiya və Paralimpiya Oyunlarının maskotu təqdim olunub. Hər iki yarışın maskotu Frigiya papaqlarıdır. Bu, Şərqi Avropa və Kiçik Asiyada yaşayan müxtəlif xalqların tarixi keçmişi ilə simvolizə olunan, ucu qabağa doğru əyilmiş konusşəkilli papaqdır. Müasir Avropada azadlıq və müstəqilliyə işarədir. Fransanın milli simvolunda da bu papağı görmək olar.



Paris-2024 brendinin direktoru Jüli Matixinin sözlərinə görə, Frigiya papaqlarının seçilməsində məqsəd idmanın hər şeyi dəyişdirə biləcəyini və onun cəmiyyətdə görkəmli yer tutmağa layiq olduğunu göstərməkdir.

# “Olimpiya, incəsənət və idman” sərgisi hər kəsin böyük marağına səbəb oldu




Azərbaycan Respublikası Milli Olimpiya Komitəsində “Olimpiya, incəsənət və idman” adlı sərginin açılış mərasimi keçirilib. Sərgi Milli Olimpiya Komitəsinin və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə MOK-un 30 illik yubileyinə həsr olunub.

Mərasimdə MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, baş katibi Azər Əliyev, Olimpiya çempionları, tanınmış mədəniyyət və incəsənət xadimləri, idman mütəxəssisləri və digər qonaqlar iştirak ediblər.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə çıxışında bu il qurumun yaranmasının 30 ilinin tamam olduğunu deyib. Bildirib ki, Milli Olimpiya Komitəsi ötən müddətdə çətin və şərəfli bir yol keçib, yüksək nailiyyətlərə imza atıb: “Bu gün açılışında iştirak etdiyimiz sərgidə nümayiş etdirilən idman mövzusunda rəngkarlıq, qrafika və heykəltəraşlıq işləri MOK-un 1998-ci ildən “Olimpiya, incəsənət və idman” adı altında keçirdiyi müsabiqələrdən toplanılmış qiymətli əsərlərdir. Beynəlxalq Olimpiya Komitəsi hər Yay Olimpiya Oyunlarının keçirilməsinə iki il qalmış “Olimpiya, incəsənət və idman” adlı beynəlxalq müsabiqə elan edir. Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi də bu müsabiqənin ən fəal iştirakçısı kimi rəssam və heykəltəraşlarımızın respublikadaxili yarışmasında ilk 3 yeri tutmuş əsərlərini beynəlxalq müsabiqəyə göndərir. Sevindirici haldır ki, Beynəlxalq Olimpiya Komitəsinin təşkil etdiyi belə müsabiqələrdə ölkəmizin rəssam və heykəltəraşlarının işləri uğur qazanır, diplom və sertifikatlarla mükafatlandırılır”.

Azərbaycan Rəssamlar İttifaqı sədrinin birinci müavini, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının prorektoru, xalq rəssamı Səlhab Məmmədov qarşıdan gələn Zəfər Günü münasibətilə tədbir iştirakçılarını təbrik edib. “Olimpiya, incəsənət və idman” sərgisində Azərbaycanın tanınmış rəssamlarının əsərlərinin nümayiş olunduğunu bildirən xalq rəssamı layihənin təbliğat və təşviqat baxımından əhəmiyyətini vurğulayıb.

Sonda qonaqlar sərgi ilə yaxından tanış olublar.

Qeyd edək ki, MOK-un inzibati binasının dörd mərtəbəsində də nümayiş olunan sərgidə rəssamlar Xalidə Səfərova, Kərim Cəlal, Telman Abbasov, Hidayət Cəlilov, Mais Əliyev, Asif Azərelli, Rauf İsmayılov, Adil Rüstəmov, Böyükağa Yəhyayev, Arif Mərdanov, Rəsul Hüseynov, heykəltəraşlardan Natiq Əliyev, Xanlar Əhmədov, Asim Quliyev, Faiq Hacıyev, Vaqif Nəzirov, Arif Qazıyev, Azad Əliyev, Zakir Mehdiyev, Nəcəf Salamov kimi tanınmış sənətkarların 60 rəsm və 30 heykəltəraşlıq əsəri nümayiş olunur.

“Olimpiya, incəsənət və idman” sərgisi bu ilin sonunadək ziyarətçilər üçün açıq olacaq.

Tədbirdən sonra idman və incəsənət nümayəndələri sərgi ilə bağlı təəssüratlarını “Olimpiya dünyası” qəzeti ilə bölüşüblər.

## “Onlar gələcək nəsillərə qalan ən dəyərli yadigardır”

***Zemfira Meftaxetdinova,***
***Milli Olimpiya Komitəsini vitse-prezidenti, Olimpiya çempionu:***

- Olduqca gözəl bir sərgidir. İdman tariximizin bir hissəsi olan bu sənət nümunələri dəyərli bir xəzinədir. Sərgidə nümayiş etdirilən hər bir əsər müəlliflərin bədii təxəyyülünün məhsullarıdır. Onlar gələcək nəsillərə qalan ən dəyərli yadigardır. Hər bir əsərə tamaşa etməklə insan beyni mənəvi cəhətdən dincəlir, bir növ insan həmin aləmə daxil olur.



## “Bu sənət əsərləri idmançıları və onların zəfərini daim yaşadacaq”

***Arzu Qulamov,***
***“İdman Filmləri və Proqramları Milli Televiziya Festivalı”nın baş direktoru və prodüseri:***

- İncəsənət və idman hər zaman bir-biri ilə vəhdət təşkil edir. Bu iki sahə ölkəni beynəlxalq aləmdə tanıtdırır. Bugünkü sərginin keçirilməsi çox əhəmiyyətlidir. Burada idmanla bağlı gözəl sənət əsərləri təqdim olundu. Həm heykəltəraşlıq, həm rəsm əsərləri hər kəsin zövqünü oxşadı. Fikrimcə, bu növdə çalışan incəsənət xadimləri idman mövzusuna daim diqqət yetirməlidirlər. Hər bir idman növündə yeni dünya, Avropa və Olimpiya çempionlarımız yetişir. Bu idmançılar həmin nailiyyətləri əldə etmək üçün böyük əziyyətlərə qatlaşırlar. Onların bu zəhmətini sənət əsərinə çevirmək çox vacibdir. Bu sənət əsərləri idmançıları və onların zəfərini daim yaşadacaq.



## “İdman sahəsi sənət əsərləri arasında ilk pillədə dayanır”

***Səlhab Məmmədov,***
***Azərbaycan Rəssamlar İttifaqı sədrinin birinci müavini, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının prorektoru, xalq rəssamı:***

- Dünyada incəsənətlə idman bir səviyyədə tutulur. İdman özü də bir incəsənətdir. İdman sahəsi zamanla bütün rəssamların marağına səbəb olub. Hələ 1960-70-ci illərdə rəssamlarımız idmanla bağlı çox gözəl sənət əsərləri yaradıblar. Zalda gördüyünüz əsərlərin hamısı dünyanın istənilən muzeyində dəyərli sənət əsəri kimi asıla bilər. İdman sahəsi sənət əsərləri arasında ilk pillədə dayanır. Çünki belə əsərlər maraqlı olmaqla yanaşı, həm də dinamiklik tələb edir. Ona görə də idman mövzusuna hər bir rəssam müraciət edib. Milli Olimpiya Komitəsinə təşəkkür edirəm ki, belə bir tədbir təşkil edərək, idmanla incəsənəti bir araya gətirib və bu əsərləri yaşadır.



## “Sərgidə gözəl rəsm əsərləri və heykəltəraşlıq nümunələri ilə tanış olduq”

***Rəşad Əliyev,***
***Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəis müavini:***

- Bugünkü tədbir yüksək səviyyədə keçirildi. Bu sərgidə biri-birindən gözəl rəsm əsərləri və heykəltəraşlıq nümunələri ilə tanış olduq. Burada Olimpiya çempionlarımızın da portretləri yer alıb. Həmçinin milli idman növlərimizə məxsus olan əsərlər də sərginin bəzəyinə çevrilib. Fürsətdən istifadə edib Milli Olimpiya Komitəsini 30 illik yubiley münasibəti ilə təbrik edir, gələcək fəaliyyətində uğurlar arzulayırıq.





## “Bir anlıq keçmişə səyahət etdik”

***Rizvan Rəsulov,***
***Azərbaycan Ağır Atletika Federasiyasının baş katibi:***

- Belə bir sərginin keçirilməsi çox sevindiricidir. Bu sərgidə nümayiş olunan əsərlərin hər biri bir tarixdir. Əsərlər özündə böyük dəyər və tarix daşıyır. Bu gün biz bu sənət nümunələrinə tamaşa edərkən, bir anlıq keçmişə səyahət etdik. Rəssamların və heykəltəraşların idman barəsində düşüncələri bu əsərlərin timsalında öz əksini tapıb. Biz bu əsərlərin qədrini bilməli, onları gələcək nəsillərə ötürməliyik.



## “Sərgidə nümayiş olunan rəsm və heykəltəraşlıq nümunələri Milli Olimpiya Komitəsinin sərvətidir”

***Nazir Rəhimov,***
***Milli Olimpiya Komitəsinin baş məsləhətçisi, “Olimpiya, incəsənət və idman” sərgisinin təşkilatçısı:***

- Bu gün sərgidə nümayiş olunan rəsm və heykəltəraşlıq nümunələri Milli Olimpiya Komitəsinin sərvətidir. 1998-ci ildən başlayaraq Milli Olimpiya Komitəsi Beynəlxalq Olimpiya Komitəsinin keçirdiyi “Olimpiya, incəsənət və idman” müsabiqələrinə qatılıb. Azərbaycanın rəssam və heykəltəraşlarının əl işləri həmin müsabiqələrdə təmsil olunub. Bu beynəlxalq müsabiqələrdə iştirak etmək üçün Milli Olimpiya Komitəsi özünün yerli müsabiqələrini təşkil edib. Müsabiqələrdə iştirak edən rəssam və heykəltəraşların işləri arasında seçim olunur və həmin seçimdən sonra fərqlənən əl işləri Beynəlxalq Olimpiya Komitəsinə göndərilirdi. Bugünkü sərgidə çox gözəl incəsənət nümunələri var. Azərbaycanda ən çox idman mövzusuna müraciət edən rəssamlar arasında Xalidə Səfərovanın adını qeyd etmək olar. Azərbaycanın xalq rəssamı olan Xalidə Səfərovanın əl işləri bu gün Qızıl fondda yer alıb. Onun bu sərgidə bir neçə sənət nümunələri var ki, həmin əsərləri vaxtilə Milli Olimpiya Komitəsinə bağışlayıb. Sərgidə 30 yaxın rəssamın 65 rəsm əsəri, 16-ya yaxın heykəltəraşın 33 əl işi nümayiş olunur.



## “Elə bir əsər yaratmalıydım ki, bununla özümü təsdiq edə bilim”

***Tatyana Voloşina,***
***rəssam, sərgi iştirakçısı:***

- Azərbaycanın xalq rəssamı Səttar Bəhlulzadəni özümün sənət kumirim hesab edirəm. Onun dünya şöhrətli əsərləri bu gün qiymətli sənət nümunəsi kimi qorunub saxlanılır. Sərgidə iştirak etmək təklifi gələndə bir qədər fikirləşdim. Elə bir əsər yaratmalıydım ki, bununla özümü təsdiq edə bilim. İlk olaraq Səttar Bəhlulzadənin məşhur “Göygöl” əsəri gözümün önündə canlandı. Həmin əsərdən qaynaqlanaraq “Milli çovqan oyunu” əsərini çəkdim. Hesab edirəm ki, pis alınmayıb. Fürsətdən istifadə edib, Milli Olimpiya Komitəsinin rəhbərliyinə və bu sərginin təşkilatçılarına öz təşəkkürümü bildirirəm ki, biz rəssamları da diqqətdən kənarda qoymayıblar.



***Anar Əhmədov,***
***Azər Əlizadə***



# Olimpiya çempionları təltifə görə təşəkkür edirlər

Bu günlərdə Milli Olimpiya Komitəsinin yaranmasının 30 illik yubileyi təntənəli şəkildə qeyd olundu. Budəfəki yubiley də idman ictimaiyyətinin nümayəndələrinin böyük sevincinə səbəb oldu. Belə ki, yubiley münasibəti ilə Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanda idmanın inkişafında xidmətləri olan şəxslərin “Əməkdar bədən tərbiyəsi və idman xadimi”, “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” və “Tərəqqi” medalı ilə təltif olunması ilə bağlı Sərəncam imzaladı.

Bu fəxri mükafatlar Azərbaycan idmançılarının xidmətlərinə verilən ən yüksək qiymət idi.

Olimpiya çempionlarımız özlərinə doğma hesab etdikləri "Olimpiya dünyası" qəzeti vasitəsi ilə fəxri mükafatlarla təltif olunduqlarına görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürlərini bildiriblər.

İdmançılarımızın sevinc və minnətdarlıq hisslərini oxucularımıza təqdim edirik.

## "Bu mükafat bizim məsuliyyətimizi bir qədər də artırır"

***Zemfira Meftaxetdinova,***
***Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Olimpiya çempionu:***

- “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif olunduğum üçün Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevə minnətdarlığımı bildirirəm. Milli Olimpiya Komitəsinin 30 illik yubileyində belə bir mükafatla təltif olunduğum üçün fəxr edirəm. Bu mükafat bizim məsuliyyətimizi bir qədər də artırır.



Biz idmançılar və Olimpiya çempionları hər zaman olduğu kimi ölkəmizə xidmət edirik. Bizi daim diqqətdə saxladığına görə ölkə rəhbərliyinə və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya minnətdarlığımı bildirirəm. Qeyd edim ki, bundan əvvəl "Tərəqqi" medalı, "Şöhrət" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunmuşam. Bir idmançı üçün bundan böyük xoşbəxtlik ola bilməz.

## "Bu mükafat biz idmançılara verilən ən yüksək qiymətdir"

***Rəfiqə Şabanova,***
***Olimpiya çempionu:***

- Azərbaycan Milli Olimpiya Komitəsinin yaradılmasının 30 illik yubileyi münasibəti ilə “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif olundum. Çox sevincliyəm. Bu mükafat biz idmançılara verilən ən yüksək qiymətdir. Bunun üçün Azərbaycan Prezidenti cənab İlham Əliyevə minnətdarlığımı bildirirəm. Bu



mükafat bizim üçün bir stimuldur. Çalışacağıq ki, bu etimadı doğruldaq. Ümumiyyətlə, biz Olimpiya çempionları hər zaman dövlətimiz tərəfindən diqqət və qayğı ilə əhatə olunmuşuq. Bu etimada layiq olmaq bizim üçün böyük şərəfdir.

## "30 illik yubileyi münasibəti ilə təltif edildiyimə görə qürur duyuram"

***Nazim Hüseynov,***
***Olimpiya çempionu:***

- “Əməkdar bədən tərbiyəsi və idman xadimi” fəxri adına layiq görüldüyüm üçün çox sevinirəm. Milli Olimpiya Komitəsinin yaranmasının 30 illik yubileyi münasibəti ilə təltif edildiyimə görə qürur duyuram. Bütün idmançılarımıza belə gözəl duyğular yaşamağı arzu edirəm. Bu, Prezidentimiz tərəfindən bizə verilən ən böyük dəyərdir. Bizə göstərdiyi diqqət və qayğıya görə, Azərbaycan Prezidenti cənab



İlham Əliyevə minnətdarlığımı bildirirəm. Fürsətdən istifadə edib, bir daha Milli Olimpiya Komitəsinin rəhbərliyini və idman ictimaiyyətini yubiley münasibəti ilə təbrik edirəm.

***Türkay Niftəliyeva***

# “Azərbaycanda Olimpiya Hərəkatı” fotomüsabiqəsinin qalibləri mükafatlandırılıblar




Noyabrın 10-da Bakı Fotoqrafiya Evində “Azərbaycanda Olimpiya Hərəkatı” fotomüsabiqəsinin iştirakçılarının sərgisinin açılış mərasimi keçirilib.

“Azərbaycanda Olimpiya Hərəkatı” mövzusunda keçirilən fotomüsabiqə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi (MOK) və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə MOK-un 30 illik yubileyinə həsr olunub.

Fotomüsabiqənin iştirakçılarının sərgisində MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, baş katib Azər Əliyev, “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Şahin Seyidzadə, olimpiya çempionları, tanınmış mədəniyyət və incəsənət xadimləri, idman mütəxəssisləri və digər qonaqlar iştirak ediblər.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə çıxışında bildirib ki, bu il 30 illiyini qeyd edən MOK idmanın və Olimpiya Hərəkatının, olimpizmin, Olimpiya ideallarının inkişafı və təbliği istiqamətində özünəməxsus dəsti-xətti ilə dünya idmanında yeni səhifə açmağı bacarıb. Otuz illik tarixə nəzər saldıqda görürük ki, qarşıda Azərbaycan Milli Olimpiya Komitəsini, olimpiyaçılarımızı zəfər və qürur dolu illər gözləyir.

Müsabiqənin şərtlərini xatırladan Çingiz Hüseynzadə deyib ki, MOK-un 30 illik yubileyinə həsr olunmuş fotomüsabiqəyə bu ilin avqustun 15-də start verilib. Azərbaycanın 20 peşəkar fotoqrafı müsabiqənin əsasnaməsinə uyğun olaraq hər biri 10 ədə foto işi göndəriblər.

Münsiflər heyəti 187 foto arasında ən yaxşılarını seçib.

Münsiflər heyətinin üzvü, Azərbaycan Fotoqraflar Birliyinin sədri Rauf Umudov qeyd edib ki, 12 nəfərdən ibarət münsiflər heyəti foto işlərə onlayn qaydada baxış keçirib, seçdikləri fotolar haqqında rəylərini xüsusi bülletenlər vasitəsi ilə MOK-a təqdim ediblər.

“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Şahin Seyidzadə çıxışında Milli Olimpiya Komitəsini 30 illiyi münasibətilə təbrik edib və müsabiqə iştirakçılarına uğurlar arzulayıb.

Daha sonra müsabiqədə ilk üç yerləri tutmuş fotoqraflar təltif olunublar.

“Azərbaycanda Olimpiya Hərəkatı” mövzusunda keçirilən fotomüsabiqədə birinci yerə fotoqraf Dilavər Nəcəfov, ikinci yerə isə Yaqub Cəfərov və İlqar Cəfərov layiq görülüblər.

Müsabiqənin şərtlərinə uyğun olaraq 3 fotoqraf üçüncü yerə sahib çıxıb. Fotoqraflar İslam Atakişiyev, Bəhruz Qurbanlı və Azər Əlizadə 3-cü yeri tutublar.

Sonda qaliblər MOK-un pul mükafatı və diplomla təltif olunublar.

# Azərbaycan Badminton Federasiyası “Ədalətli Oyun Ruhu” nominasiyasında təltif olunub

İtaliyanın paytaxtı Roma şəhərində Avropa Ədalətli Oyun Hərəkatının (European Fair Play Movement) təşkilatçılığı və İtaliyanın Ədalətli Oyun Milli Komitəsinin dəstəyi ilə “The European Fair Play Plaque of Merit and Diploma” mövzusunda Beynəlxalq Olimpiya Komitəsinin Avropa Ədalətli Oyunlar Hərəkatının mükafatlandırılma mərasimi keçirilib.

Azərbaycan Badminton Federasiyası “Ədalətli Oyun Ruhu” nominasiyasında qalib gələrək təltif olunub.

Qeyd edək ki, bu mükafat Azərbaycana təqdim olunmuş ilk “Fair Play” mükafatıdır. Mükafat Azərbaycan Badminton Federasiyasının marketinq meneceri Aydan Məmmədhəsənovaya təqdim olunub.

Mükafatlandırma mərasimi zamanı bildirilib ki, Azərbaycanda badmintona olan maraq gündən-günə artır. İnklüzivlik və para-badminton istiqamətləri, eləcə də cəzaçəkmə müəssisələrində badmintonun təbliği federasiyanın prioritet istiqamətlərindən biridir.

Azərbaycan Badminton Federasiyası etik dəyərlər və ədalətli oyun ideyalarının qorunmasındakı təşəbbüslərinə görə Avropa Ədalətli Oyun Hərəkatının mükafatına layiq görülüb. Federasiya cəzaçəkmə müəssisələrində reallaşdırılan tədbirlər, eləcə də inklüziv və para-badmintonun inkişafı istiqamətində həyata keçirdiyi layihələrə görə bu nominasiya üzrə mükafatlandırılıb.

# Azərbaycanda cüdonun yaranmasının 50 illiyinə həsr olunan marka dövriyyəyə buraxılıb

Azərbaycan Cüdo Federasiyası (ACF) “Azərpoçt” MMC ilə əməkdaşlıq çərçivəsində Azərbaycanda cüdonun yaranmasının 50 illiyinə həsr olunan poçt markasını təqdim edib.



Beynəlxalq Cüdo Federasiyasının Prezidenti Marius Vizer və Azərbaycan Cüdo Federasiyasının prezidenti Rəşad Nəbiyev tərəfindən poçt markasının “söndürülməsi” mərasimi keçirilib.

“Azərpoçt” MMC tərəfindən hazırlanan marka Belarusun Bobruysk şəhərinin “Bobruisk Integrated PrintingHouse” çap evində 48 min ədəd tirajla çap olunub.

Buraxılış səkkiz markadan ibarət kiçik vərəq şəklindədir.

# Çin Qran-prisi keçirilməsə...

Formula 1 üzrə 2023-cü il Azərbaycan Qran-prisinin vaxtı dəyişdirilə bilər. Buna səbəb yarışın Çin mərhələsinin təşkilinin sual altına düşməsidir. Şanxay trasında keçirilən Qran-prinin ölkədə koronavirus pandemiyası ilə bağlı vəziyyətin pisləşməsinə görə təxirə salınacağı istisna olunmur.

Bu baş verərsə, Çin Qran-prisindən əvvəlki və sonrakı yarışlar arasında 4 həftəlik fasilə yaranacaq. Bu isə təşkilatçılara sərf etmir. Məhz həmin fasiləni 3 həftəyə endirmək üçün Azərbaycan Qran-prisi nəzərdə tutulan vaxtdan 1 həftə tez keçirilə bilər.

Qeyd edək ki, Formula 1-in rəsmi saytının açıqladığı təqvimdə Bakıdakı yarışın 28 - 30 apreldə olacağı göstərilib.

## AGF təmsilçilərinin Avropa Gimnastikasının müxtəlif komissiyalarına namizədliyi irəli sürülüb




Dekabrın 2-3-də Portuqaliyanın Albufeira şəhərində Avropa Gimnastikasının 29-cu konqresi təşkil olunacaq. Konqres çərçivəsində qurumun rəhbərliyi, texniki komitələri və komissiyalarına seçkilər keçiriləcək.

AGF tərəfindən Yevgeniya Vilyayevanın bədii gimnastika, Ruslan Eyvazovun gimnastika hamı üçün, İnara İsrafilbəyovanın isə "TeamGym" idman növü üzrə Avropa Gimnastikasının texniki komitələrinin üzvlüyünə namizədlikləri irəli sürülüb.

AGF yarandığı dövrdən Avropa və beynəlxalq gimnastika qurumları ilə sıx əməkdaşlıq edir. Ötən il AGF-in idman direktoru, təmsilçimiz Natalya Bulanova Beynəlxalq Gimnastika Federasiyasının (FIG) bədii gimnastika üzrə Texniki Komitəsinə, bədii gimnastika üzrə Azərbaycan yığma komandasının məşqçisi Siyana Vasileva isə Atletlər Komissiyasına üzv seçiliblər.

## *Bədii gimnastlarımızdan uğurlu nəticə*

Litvanın Vilnüs şəhərində bədii gimnastika üzrə "Dalia Kutkaite" beynəlxalq turniri keçirilib. Yarışda ölkəmizi təmsil edən Azərbaycan yığma komandasının üzvləri uğurla çıxış ediblər.



Gimnastımız Alina Məmmədova çoxnövçülük, top (26.150 xal) və gürzlərlə (26.250 xal) hərəkətlərin icrasında rəqiblərindən güclü olduğunu nümayiş etdirərək qızıl medal qazanıb.

Millimizin digər üzvü Kamilla Seyidzadə lentlə qızıl (24850 xal), halqa ilə (24.000 xal) gümüş medala sahib çıxıb.

Leyli Ağazadə isə lentlə (27.850 xal) gümüş, halqa (27.050 xal), top (27.800 xal), gürzlərlə (24.600 xal) hərəkətlərin icrasında və çoxnövçülükdə bürünc medal əldə edib.

Bədii gimnastımız Alina Məmmədova yarışda həmçinin "Miss ekspressiya" titulu ilə mükafatlandırılıb.

## Zəfər Günündə "Xarı Bülbül Şuşa"dan xüsusi təqdimat

Azərbaycanın şanlı Qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsinin simvoluna çevrilən xarıbülbül bu dəfə idman meydanlarını bəzəyəcək. Mədəniyyət paytaxtımız Şuşanı təmsil edən "Xarı bülbül" voleybol klubu yeni mövsüm üçün Zəfər Günündə idman formalarını təqdim edib. Ökəmizin ilk idman geyimləri brendi olan "IL'AZERO" tərəfindən hazırlanan formalar müxtəlif rənglərdədir. Klubun ağ rəngli formalarında Vətən müharibəsində şəhidlik zirvəsinə yüksələn qəhrəmanlarımızın adları, həmçinin Azərbaycanın məşhur xalçaçısı, Xalq rəssamı Lətif Kərimovun əsərlərindən milli naxışlar əks olunub. Köynəyin üzərində klubun və istehsalçı şirkətin loqosu da yer alıb. Milli ornamentlərlə bəzədilən formanda "Xarı bülbül Şuşa" sözlərinin yazılması klubun tarixi torpağımızı təmsil etdiyinin göstəricisidir.

Kişi voleybolçulardan ibarət klubun yaradılmasında əsas məqsəd Şuşanın əzəli Azərbaycan torpağı olduğunu bir daha dünyaya nümayiş etdirməkdir. Bu il ölkə çempionatında debüt edəcək komandanın hədəfi Vətən müharibəsinin simvoluna çevrilmiş xarıbülbülü beynəlxalq arenada tanıtmaq, daşıdığı formanı layiqincə təmsil etmək, bu adın dünya idmanında geniş yayılmasına töhfə verməkdir. Kifayət qədər təcrübəli, eləcə də gənc voleybolçulardan təşkil olunan komandamız bu yaxınlarda Macarıstanda təlim-məşq toplanışında iştirak edib və yoxlama oyunlarında qələbə qazanıb.

Klubun prezidenti tibb üzrə fəlsəfə doktoru, dosent Fatimə Hacıyeva, baş məşqçisi Ziya Rəcəbov, təsisçisi isə beynəlxalq idman agenti, "IL'AZERO"nun sahibi, eyni zamanda, komandanın voleybolçusu İlqar İmamquliyevdir.

## Çağırış kuboku: "Murov" 1/8 finala vəsiqə qazandı

Kişi voleybolçulardan ibarət "Murov" klubu Çağırış kuboku yarışında növbəti mərhələyə yüksəlib. Komandamız turnirin 1/16 final mərhələsinin cavab oyunları çərçivəsində Avstriyanın "Qrats" klubu ilə üz-üzə gəlib. Bakı Voleybol Mərkəzində keçirilən görüş Azərbaycan təmsilçisinin qələbəsi ilə başa çatıb - 3:0 (25:13, 25:12, 25:23). Bu arenada keçirilən ilk qarşılaşmada da "Murov" rəqibini eyni hesabla məğlub etmişdi. Komandamız iki görüşün nəticəsinə əsasən səkkizdəbir finala vəsiqə qazanıb.

Qeyd edək ki, "Murov" 1/32 final mərhələsində Xorvatiyanın "KitroVarazdin" komandasını mübarizədən kənarlaşdırıb.

## Azərbaycan çempionatına start verildi

Həndbol üzrə XXIX Azərbaycan çempionatına start verilib. "AHF Arena" idman kompleksində keçirilən yarışın açılış mərasimi iştirakçıların paradı ilə başlanıb. Açılış mərasimində çıxış edən Federasiyanın vitse-prezidenti Orxan Abbasov AHF-nin prezidenti Saleh Məmmədovun adından iştirakçıları yarışın başlanması münasibətilə təbrik edib.

O, turnirin həndbolun inkişafına təkan verəcəyinə ümidvar olduğunu söyləyərək komandalara uğurlar arzulayıb.

Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Elnur Məmmədov növbəti ölkə çempionatından sağlam rəqabət və maraqlı idman mübarizəsi gözlədiklərini bildirib. Nazirlik rəsmisi komanda sayının artırılmasının buna zəmin yaradacağını vurğulayıb.

Tədbirdə Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra turnir açıq elan edilib.

Azərbaycan çempionatı kişilərin yarışı ilə start götürüb.

Açılış matçında "Təhsil" "U-16" üzərində inamlı qələbə qazanıb - 49:19. Ardınca meydançaya "Məhsul" və "Bakı" komandaları çıxıblar.

Gözlənildiyi kimi gərgin mübarizə ilə yadda qalan oyun 29:28 hesabı ilə "Məhsul"un xeyrinə başa çatıb. "İdman Akademiyası" - RİOEUGİM görüşündə isə ev sahibi qələbə çalıb - 46:28.

Qeyd edək ki, Gənclər və İdman Nazirliyi və Azərbaycan Həndbol Federasiyasının birgə təşkil etdiyi yarışda ümumilikdə 7 kişi (Bakı, Təhsil, Məhsul, İdman Akademiyası, Dinamo, RİOEUGİM, U-16) və 5 qadın (Azəryol, Qarabağ, İdman Akademiyası, Azərsu, U-16) kollektivi mübarizə aparır.

## Paytaxtımızda ağırlıqqaldırma üzrə beynəlxalq məşqçilik kursu təşkil olunub

Şüvəlan qəsəbəsindəki Ağır Atletika Akademiyasında Beynəlxalq Ağır Atletika Federasiyasının (IWF) İnkişaf proqramı çərçivəsində beynəlxalq məşqçilik kursu keçirilib. Mühazirəçi qismində IWF-in Məşqçilik və tədqiqat komitəsinin üzvü, amerikalı mütəxəssis, Doktor Kayl Pirs çıxış edib. Kursa yeni yaradılan 20-dən çox yeni ağır atletika klubunun məşqçiləri, həmçinin digər mütəxəssislər olmaqla ölkənin bütün regionlarından 50-yə yaxın məşqçi qatılıb.

Kurs zamanı bir çox mövzular barədə nəzəri və praktiki dərslər keçilib. Onların içərisində ağır atletika idman növündə təhlükəsizlik qaydaları, biomexanika və fiziologiya, məşqçilik təliminin və tədrisinin prinsipləri, bədənin qızışdırılması və əzələlərin elastik vəziyyətə gətirilməsi, ağırlığın qaldırılmasına baza hazırlığı, güc tətbiq etməklə ştanqın sinəyə alınması və birdən qaldırma, "Təkanla qaldırma hərəkəti"nin anlayışı, "Birdən qaldırma hərəkəti"ndə yanaşmaların artması prosesi, klassik yanaşmaların nümayiş etdirilməsi, müqavimətin artması prinsipləri, məşq proqramları, ağır atletika yarışları, antidopinq, qaynaq və məlumatlara giriş imkanları olub.

Dərslər interaktiv şəkildə keçib, dinləyicilərin sualları cavablandırılıb, yeni, müasir məşq, tədris metodları ətrafında geniş müzakirələr aparılıb. İştirakçıların fikrincə, kurs çox səmərəli olub, yeni biliklər əldə etmək, ağır atletikada müasir tendensiyaları öyrənmək baxımından böyük fürsət xarakteri daşıyıb. Dörd gün ərzində məşqçilik üzrə iki kateqoriya (level 1 və level 2) mühazirələrdə iştirak edən mütəxəssislər, sonda imtahan verərək beynəlxalq məşqçilik sertifikatı əldə ediblər.




Mühazirəçi Kayl Pirs kurs barədə danışarkən təşkilatçılıqdan razılığını dilə gətirib. O, iştirakçıların həvəsli olmasını təqdir edib: "Hər şey əla təşkil olunmuşdu. Səmimi və xoş münasibət, peşəkar yanaşma ilə qarşılaşdım. Tədrisi istədiyimiz səviyyədə apara bildik. Yeni, yaxud təcrübəli olmalarından asılı olmayaraq, bütün məşqçilərin istəkli olması, müxtəlif mövzulara toxunaraq müzakirələr aparmasını görmək çox xoş oldu. Bakıdan yaxşı təəssüratlarla ayrılıram və böyük məmnuniyyətlə bir də gəlmək istəyərəm".

## İspaniya sınağı sabah başlayır

Sabah İspaniyanın Alikante şəhərində gənc boksçular arasında dünya çempionatına start veriləcək. Azərbaycan Boks Federasiyasından verilən məlumata görə, 12 gün davam edəcək yarışda Azərbaycan milli komandası da mübarizə aparacaq.

Oğlanlardan ibarət millinin baş məşqçisi Elbrus Rzayev, məşqçilər Vüqar Məmmədov və Elvin Məmişzadə Alikantedə 11 boksçuya şans verəcək.

Qızlardan ibarət yığmanın məşqçisi İlkin Ağayev isə mundialda 2 idmançını sınayacaq.

Komandaya Azərbaycan Boks Federasiyasının idarə heyətinin üzvü Rövşən Hüseynov rəhbərlik edir. Boksçularımız noyabrın 28-də Vətənə dönəcəklər.

Dünya çempionatında Beynəlxalq Boks Federasiyasının dəvəti ilə azərbaycanlı hakim Anar Babanlı da ədalət təmsilçiləri sırasında yer alacaq.

Qeyd edək ki, mundialda 89 ölkədən 684 (476 oğlan, 208 qız) boksçunun iştirakı gözlənilir.



## Boksçularımız beynəlxalq turnirdə 11 medalla birinci yeri tutdular

Polşanın Keltse şəhərində keçirilən boks üzrə beynəlxalq turnirə yekun vurulub. 16 ölkənin iştirakı ilə təşkil olunan yarışa 13 boksçu ilə yollanan millimiz turniri 7 qızıl və 4 bürünc medalla başa vurub. Yarışın sonuncu - final günündə milli komandanın 7 boksçusu rinqə çıxıb. Boksçularımızın hər biri həlledici döyüşü qələbə ilə başa vurub. Təmsilçilərimizdən Məsud Yusifzadə (51 kq), Ümid Rüstəmov (57 kq), Malik Həsənov (63,5 kq), Nəbi İsgəndərov (67 kq), Murad Allahverdiyev (80 kq), Alfonso Dominqes (86 kq) və Məhəmməd Abdullayev (+92 kq) məğlub edərək qızıl medala layiq görülüb. Millimizin aktivinə bürünc medalları isə yarışın əvvəlki günlərində Ruslan Qədirov (57 kq), Sərxan Əliyev (71 kq), Eldar Quliyev (86 kq) və Rauf Rəhimov (92 kq) yazdırıblar.

Beləliklə, yığmamız bu göstərici ilə kişilərin yarışında komanda hesabında birinci olub.

# Misli Premyer Liqası: Lider bu mövsüm ilk dəfə xal itirdi

Futbol üzrə Azərbaycan Premyer Liqasında XIV turun oyunları keçirilib. Tura “Şamaxı” “Sumqayıt” oyunu ilə start verilib. Şamaxı şəhər stadionundakı qarşılaşma meydan sahiblərinin 4:2 hesablı qələbəsi ilə yekunlaşıb. Komandanın qollarını 8-ci dəqiqədə Rövşən Şahmuradov, 33-cü dəqiqədə Nihad Quliyev, 62-ci və 66-cı dəqiqədə Kamran Quliyev vurub. Qonaqların heyətində isə 14-cü dəqiqədə Vüsal İsgəndərli, 69-cu dəqiqədə Rüfət Abdullazadə fərqlənib.”Şamaxı” qələbə sayəsində xallarının sayını 10-a çatdıraraq 8-ci yerdə qərarlaşıb. “Gənclik şəhəri” təmsilçisi 5 xalla sonuncu - 10-cu pillədə qərarlaşıb.



Turun ikinci oyun günündə daha iki oyun keçirilib. Günün ilk qarşılaşmasında “Zirə” öz meydanında “Səbail”i qəbul edib. Görüşün taleyini 1 qol həll edib. 73-cü dəqiqədə Rəhim Sadıxovun vurduğu qol “qartallar”a qələbə qazandırıb.

Rəşad Sadıqovun baş məşqçi olduğu komanda bu nəticədən sonra xallarını 22-yə çatdıraraq, 4-cü pilləyə yüksəlib. 10 xalı olan “Səbail” isə 7-ci sırada qalıb.

Günün ikinci matçında “Neftçi” “BakcellArena”da “Qəbələ”ni sınağa çəkib. Görüş “ağ-qaralar”ın 2:0 hesablı qələbəsi ilə yekunlaşıb.Hesabı 24-cü dəqiqədə Kenni Sayef açıb. Rəhman Hacıyev isə 76-cı dəqiqədə son nöqtəni qoyub.Bu qələbədən sonra xallarını 29-a çatdıran “Neftçi” 3-cü pillədəki mövqeyini qoruyub. 20 xalı olan “Qəbələ” isı 5-ci sırada qərarlaşıb.

Çempionatın sonuncu oyun günündə daha iki oyun baş tutub. Əvvəlcə “Kəpəz” klubu Gəncədə “Turan Tovuz”u qəbul edib. Qərb derbisi qolsuz heç-heçə ilə başa çatıb.Bu nəticədən sonra xallarını 9-a çatdıran meydan sahibləri 9-cu pillədə qalıb. 16 xalı olan qonaqlar isə 6-cı pillədəki mövqeyini qoruyub.

Tura çempionatın ilk iki pilləsində qərarlaşan komandaların oyunu ilə yekun vurulub. Mərkəzi oyunda “Sabah” - “Qarabağ”ı qəbul edib. “Bank Respublika Arena”da oynanılan görüş qolsuz heç-heçə ilə başa çatıb.Cari mövsüm ölkə çempionatında ilk dəfə xal itirən “köhlən atlar” hazırda turnir cədvəlinə başçılıq edir. Ağdam klubunun aktivində 40 xalı var. Liderdən 5 xal geri qalan “Sabah” isə 2-ci pillədə qərarlaşıb.




# “Qarabağ”ın Konfrans Liqasında “Gent”ə qarşı keçirəcəyi oyunların başlama saatı müəyyənləşib

Ağdamın “Qarabağ” klubunun UEFA Konfrans Liqasının pley-off mərhələsi çərçivəsində Belçikanın “Gent” komandasına qarşı keçirəcəyi oyunların başlama saatı müəyyənləşib. Gələn il fevralın 16-da Bakıda, Tofiq Bəhramov adına Respublika Stadionunda oynanılacaq ilk qarşılaşma saat 21:45-də start götürəcək.

Fevralın 23-də Gent şəhərində keçiriləcək cavab matçı isə Bakı vaxtı ilə saat 00:00-da başlayacaq.

Qeyd edək ki, “Qarabağ” Avropa Liqasında yer aldığı G qrupunu 3-cü pillədə başa vurduğu üçün Konfrans Liqasının pley-off mərhələsində iştirak hüququ qazanıb.

# Stolüstü tennisçimiz beynəlxalq toplanışda iştirak edir

İstedadlı stolüstü tennisçimiz Onur Quluzadə Avropa Stolüstü Tennis Federasiyasının təşkil etdiyi “Eurotalents Development Camp” toplanışında iştirak edir. Noyabrın 13-də start götürən təlim-məşq toplanışı Çexiyanın Havirov şəhərində keçirilir. İdmançımız təlim-məşqdə milli komandanın baş məşqçisi Mixail Timofeyevin rəhbərliyi ilə iştirak edir. Havirov sınaqları həmin layihə çərçivəsində ilin sayca dördüncü və sonuncu toplanışıdır.



Hazırlıq prosesi noyabrın 20-dək davam edəcək.

Qeyd edək ki, qitənin istedadlı tennisçiləri indiyədək Slovakiya, Rumıniya və Fransada bir araya gəliblər.

# Tennisçilər Bakı çempionatında yarışdılar

Azərbaycan Tennis Federasiyasının təşkilatçılığı ilə Bakı çempionatı keçirilib. Bakı Tennis Akademiyasında keçirilən çempionatda 12 yaşdan yuxarı 29 tennisçi mükafatlar uğrunda mübarizə aparıb. Müxtəlif yaş kateqoriyalarında keçirilən çempionatda 15 oğlan və 14 qız tək və qoşa yarışlarda qüvvəsini sınayıb. Veteran tennisçilərin də iştirak etməsi yarışa maraq qatıb. Oğlanlardan Samir Qafarov, İmran Abdulla, Vasif Mütəllibov, Zaur Məmmədzadə, Ziya Ələkbərov, Asim Cəlilov, Yusif Rzayev mükafatçılar sırasında yer alıb. Qızlardan yarışında isə Umayra Həşimova, Lalə Eyvazova, Reyhan Məmmədli, Lalə Kərimova, Zeynəb Hüseynzadə, Xədicə Cəfərquluzadə, Nurel Əliyeva mükafatçılar sırasına düşüb.

Yekunda qalib və mükafatçılar Azərbaycan Tennis Federasiyası tərəfindən diplom və medallarla təltif olunublar.

# Uşaq futbol turnirinin qalibi müəyyənləşdi

Bakı kənd və qəsəbələri arasında keçirilən uşaq futbol turnirinə yekun vurulub.Bakı Tennis Akademiyasında keçirilən medal uğrunda qarşılaşmalardan əvvəl Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və torpaqlarımızın azad edilməsi uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.Binə və Mehdiabad komandaları arasında üçüncü yer uğrunda oyunun əsas vaxtı 1:1 hesabı ilə başa çatıb. Penalti zərbələrində daha dəqiq olan Mehdiabad futbolçuları turnirin bürünc medalına layiq görülüblər.

Final matçından əvvəl incəsənət ustalarının ifasında musiqi proqramı təşkil olunub. Tanınmış futbolçular Ruslan Abışov, Emin Balayev və Emin Mahmudovun uşaqlar üçün imza sessiyası keçirilib.

Gərgin idman mübarizəsi şəraitində keçən final qarşılaşmasında Yeni Suraxanı komandası Sabunçunu 1:0 hesabı ilə məğlub edərək turnirin qalibi olub.

Turnirin ən yaxşı oyunçusu Rəhim Hüseyn (Yeni Suraxanı), ən yaxşı qapıçısı isə Rinat Ataxanov (Sabunçu) seçiliblər. Yarışın bombardiri mükafatına isə Nicat Qardaşov (Binəqədi, 11 qol) layiq görülüb.

Mükafatları gənclər və idman naziri Fərid Qayıbov, nazir müavini MarianaVasileva, Milli Olimpiya Komitəsinin baş katibi Azər Əliyev, Bakı Abadlıq Xidmətinin direktor müavini Vüqar Müfidzadə, Azərbaycan Tennis Federasiyasının prezidenti Oqtay Əsədov, AFFA-nın vitse-prezidenti Rauf Əliyev, Binəqədi rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev təqdim ediblər.

Böyük coşqu və təntənəli şəkildə təşkil olunan mükafatlandırma mərasimində ilk üç yeri tutan komandaların üzvlərinə medal və diplomlar təqdim olunub. Nazir Fərid Qayıbov qalib komandaya turnirin baş mükafatı olan xüsusi kuboku təqdim edib.

Mükafatlandırma mərasiminin davamı olaraq turnirdə iştirak edən bütün uşaqlara “İSMA bikes Azərbaycan” şirkəti tərəfindən velosipedlər təqdim edilib.

Xatırladaq ki, Gənclər və İdman Nazirliyi və Bakı Abadlıq Xidmətinin təşkilatçılığı, AFFA-nın dəstəyi ilə keçirilən yarışlarda Bakının 32 kənd və qəsəbəsinin futbol komandası oktyabrın 8-dən noyabrın 13-dək mübarizə aparıb. 350-dən çox 2010-2011-ci il təvəllüdlü futbolçunun qoşulduğu turnirin keçirilməsində əsas məqsəd uşaq futbolunun inkişafı və təbliği, eyni zamanda idmanın kütləviliyinə nail olmaqdır.

**olimpnews.az - sizin saytınız**



# Marşal qeydiyyatı proqramına start verilib

Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin tərkibində fəaliyyət göstərən Bakı Marşal Klubu (BMK) 2023-ci il aprelin 28-30-da keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisinin marşal qeydiyyatı proqramına start verib.

Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən “Olimpiya dünyası” qəzetinə verilən məlumata görə, Bakının mərkəzi küçələrində bu möhtəşəm idman tədbirinin uğurla keçirilməsində birbaşa töhfəsini vermək istəyən və yaşayış yerindən asılı olmayaraq yaşı 21-dən çox olan hər kəs marşal proqramına qoşula bilər.

Proqrama cəlb olunmuş marşallar 2023 Formula 1 Azərbaycan Qran-Prisinin əvəzolunmaz bir hissəsi olacaq, eyni zamanda, Formula 1 yarışının həyəcanını trekə ən yaxın yerdən yaşamaq imkanı əldə edəcəklər.

Məlum olduğu kimi, dünyada keçirilən bütün Formula 1 yarışlarının təşkilatçılığı və keçirilməsində marşallar böyük rol oynayır. F1 aləmində marşallara, həmçinin “Yarış rəsmiləri” də deyilir. Onların fəaliyyəti F1 pilotlarının təhlükəsizliyinin təminatında və bütün marşal komandasının inzibati təşkilatçılığında həyati əhəmiyyət kəsb edir.




Formula 1 Azərbaycan Qran-Pri yarışlarında marşal fəaliyyətini uğurla başa çatdırmış hər kəsə Azərbaycan Avtomobil Federasiyası və Beynəlxalq Avtomobil Federasiyası (FIA) tərəfindən beynəlxalq lisenziya təqdim olunacaq. Beynəlxalq lisenziya marşallara, yalnız Azərbaycanda deyil, həmçinin Formula 1 Qran-Prisinə ev sahibliyi edən digər ölkələrdə keçiriləcək yarışlara qatılmaq hüququ verəcək.

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.